**UOT 303 + 7.01/.09** **P S İ X O L O G İ Y A**

**Tamilla Hikmət qızı Əhmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**
**e-mail: tamillahikmetqizi@mail.ru**

# SOSİAL İŞDƏ ART-TERAPİYA METODUNUN SƏMƏRƏLİLİYİ

**Xülasə:** Art-terapiya (incəsənət ilə müalicə almaq) yaradıcılıq vasitəsi ilə psixokorreksiya deməkdir – yaradıcı proses zamanı insan öz emosional vəziyyətini aşkar edir. Baxmayaraq ki, elmi dövriyyəyə XX əsrdə tətbiq edilmişdi, art-terapiyanın insan cəmiyyətinin tarixi qədər ənənəsi var. Ölkədə art-terapiyanın tədricən nüfuz etməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, sosial işdə art-terapiya fəaliyyətinin uğuru ilk növbədə peşəkar kadrların hazırlanması ilə bağlıdır. Ali məktəblərdə "sosial iş" ixtisasına yiyələnən tələbələrə art-terapiyanın fənn kimi tədrisi, "sosial işdə art-terapevt" ixtisasının tətbiqi, sosial işdə art- terapiya haqqında nəzəri və metodoloji bazanın akademik səviyyədə tədqiqatlara, bu sahədə milli model yaradılması, təsnif edilmiş layihələrin həyata keçirilməsi, dünya art-terapiya assosiasiyaları ilə əməkdaşlıq, klassik elmi əsərlərin Azərbaycan dilinə tərcüməsi, bütövlükdə məsələnin konseptual həllinə ehtiyac var.

**Açar sözlər:** Art-terapiya, sosial, psixi, fiziki sağlamlıq, profilaktika, sosial iş

Art-terapiya (incəsənət ilə müalicə almaq) yaradıcılıq vasitəsi ilə psixokorreksiya deməkdir-yaradıcı proses zamanı insan öz emosional vəziyyətini aşkar edir. Baxmayaraq ki, elmi dövriyyəyə XX əsrdə tətbiq edilmişdi, art-terapiyanın insan cəmiyyətinin tarixi qədər ənənəsi var. Ən qədim dövrdən şaman və kahinlər, ağsaqqallar və maqlar arxaik kollektivin sınaqlarda qalib gəlmək üçün soydaşları ilə birgə mərasimlər keçirirdilər. Qalibiyyət mərasiminin ayrılmaz hissəsi olan oyunlar, rəqs, musiqi, saz və söz sənəti, tamaşalar, geyim və maskalar, rəsm, bir sözlə, incəsənətin bir çox formaları vasitəsi ilə ruh yüksəkliyi, həmrəylik yarada bilirdilər. Müasir sosial işçinin cəmiyyətdə rolu bir növ əcdadları idarəedən elitaya bənzəyir. İncəsənətin vasitəsi ilə cəmiyyətdə saflıq, birlik və mübarizlik tərbiyə etmək ənənəsi bəşəriyyətin ən erkən tarixinə və zəngin ənənəyə malikdir: Qobustanda qayaüstü rəsmlər, pifaqorçuların misteriyaları, şəbihlər, mərasim oyunları, Dədə Qorqud dastanları, kilsə musiqisi,

dərvişlərin rəqsi, bir çox ölkələrdə bu günə kimi yaşayan meydan tamaşaları buna sübutdur.

Misteriya və mərasimlərdən bünövrəsini götürən art-terapiya, XX əsrdə yeni inkişaf mərhələsinə təkamül etmişdir. Şəxsi inkişafın maneələrini aradan götürmək məqsədilə, ötən əsrin 30-cü illərində tətbiqini başlayan metod, faşist düşərgələrindən xilas edilən uşaqların yaşadıqları stresslərin nəticələrini incəsənət ilə sağaltmağa çalışırdılar. Art-terapiya termininin meydana gəlməsi Adrian Xillin adı ilə bağlıdır. Erkən mərhələdə art-terapiya imkanları haqqında elmi qənaətlər Z. Freyd, Q. Yunq, A. Xill, K. Rogers, A. Maslou və b. alimlərin nəzəri və praktiki nailiyyətlərində öz əksini tapmışdır. 40-cı illərdə rəqs-hərəkət terapiyası yaranması xoreoqraf Merion Çeyzin adı ilə bağlıdır. Onun davamçıları Meri Uaytxaus, Blanş Evan, Trudi Şrup idilər. Onlar "hərbi nevroz"lu insanların rəqs vasitəsi ilə terapiyasını aparırdılar.

Hal-hazırda art terapiyanı bir neçə prinsipə görə təsnif edirlər:

1. Passiv art-terapiya. Mövcud olan sənət əsərlərinin pasiyent tərəfindən təhlili, izahı və şərhi;
2. Aktiv art-terapiya. Pasiyenti müstəqil yaradıcılığa vadar etmək. Bu halda yaradıcı akt əsas terapiya faktoru kimi qiymətləndirilir;
3. Hər iki prinsipin sintez şəklində istifadəsi;
4. Pasiyentin yaradıcılıq prosesində psixoterapevtin rolunun əhəmiyyətini qəbul etmək.

Belə ki, art-terapiyanın tətbiqedilmə sahələri olduqca genişdir: həssas, xüsusi qayğıya ehtiyacı olanların asudə vaxtının səmərəli keçirilməsi məqsədindən tutmuş, ta şəxsiyyətin gizli- dağıdıcı həyəcanlarının dərin təhlilinə qədər. Art-terapiyanın məqsədi, əsasən, aqressiv və əsəbilik meyillərini sakitləşdirmək, sosial inteqrasiya problemlərini həll etmək, daxili gərginliyi aşkarlamaq, nikbinliyi artırmaq, stress və frustrassiyaları azaltmaq, özünəgüvənmək və özünədəyər vermək, şəxsiyyətlərarası konfliktlərin həlli – bir sözlə, psixi, emosional, fiziki sağlamlığın qayğısından ibarətdir. Bir çox terapiyalarda olduğu kimi, art-terapiya da fərdi və qrup şəklində reallaşır.

Art-terapiyanın müxtəlif növləri mövcuddur. Art-terapiyada incəsənətin vizual növləri vasitəsi ilə pasiyentin psixoemosional durumuna təsir edən sənət növləri: rəsm, qrafika, rəngkarlıq, heykəltəraşlıq, xırda plastika, dizayn, batik, qobelen, mozaika, qobelen, freska, şəbəkə sənəti, instalyasiya və s. izoterapiya növləri, biblioterapiya, immaqoterapiya (obraz, teatr tamaşaları ilə müalicə), musiqi terapiyası, vokaloterapiya, kineziterapiya (rəqs, hərəkət, korreksiya edici ritmika), qum terapiyası, oriqami, oyun terapiyası və s. istifadə olunur.

Sosial işdə art-terapiyanın mahiyyəti özünüifadə, özünüdərketmə bacarıq və qabiliyyətlərinin inkişafı ilə harmonik şəxsiyyət yaranmasına kömək etməkdir.

Sublimasiya art-terapiyada şəfa təsirinin əsas mexanizmidir: bir tərəfdən incəsənət simvolik formada konflikt situasiyasını yenidən qurur, o biri tərəfdən isə estetik reaksiyanın təbiəti əzab verən affekti, sublimasiya vasitəsi ilə zövq yaşadan hərəkətin mexanizmini yaradır.

Belə ki, sosial işdə art-terapiya yeni texnologiya, yaradıcı metod və yanaşma hesab edilir. Sosial işdə art-terapiya metodunun istifadəsi uşaqlarda sosial-mədəni və idrakedici inkişafın, özünü idarəetmənin formalaşması, aqressiv hərəkətlərin və konfliktlərə meylin profilaktikası, tale zərbələrindən sonra normal həyata qayıdış, sosial adaptasiya və s. bu kimi vacib hədəflərə nail olmağa imkan yaradır.

Uşaq və yeniyetmələrin fiziki və psixi cəhətdən sağlam böyüməsində sosial işçinin art- terapiya imkanından istifadəsi terapiyanın bütün formaları ilə yanaşı əhəmiyyətlidir. Eyni zamanda, art-terapiyaya məxsus olan: estetik həyəcan, həvəs oyadan, həzz və əyləncə elementiləri daha çox uğur qazanmağa, hiss və duyğular vasitəsi ilə diqqət və qavrayışı inkişaf etdirmək, uşaqda nikbin dünyagörüşün formalaşması, milli və bəşəri mənəvi mədəni dəyərlərə varis olması üçün imkan verir. Bir sözlə, uşaq və yeniyetmənin əqidə və iradəsinin, sosial kommunikasiya imkanlarının, idrak və davranışının inkişafı üçün emosional sahə aparıcı rol oynayır. Emosional və sosial intellektin ətraf mühitin insafsızlığı qarşısında həssaslığı bir çox hallarda art-terapiyanın humanist potensialı ilə həll edilir.

Valideynlərin, bütövlükdə ailəyə yaxın olan üzvlərin uşaq və yeniyetmələr ilə münasibətləri, birgə fəaliyyətin müalicə alan üçün hərtərəfli sağlamlığın, inkişafın təməlini qoyur. Və ailə üzvləri ilə bir yerdə artterapiya keçən uşaqlar və yeniyetmələr, ətraf mühit və daxili aləmləri ilə harmoniya əldə etməyə təkan verir və kommunikativ sərhədləri aşmaq, psixi funksiyaların canlanması, deviant davranışın, asosiallığa meylin qarşısını almaq üçün şərait yaradır.

Ərazi bütövlüyü naminə dəmir yumruq kimi birləşən və qalib gələn Azərbaycan bu günləri bir çox həyat önəmli məsələlərin həllini gerçəkliyə çevirir. Gündəmdə duran vacib məsələlərdən şəhid və qazi, o cümlədən, xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş ailələrdə uşaqların, yeniyetmələrin psixi sağlamlığının, emosional intellektinin qorunması, bərpası və profilaktikasıdır.

Ölkədə Psixi Sağlamlıq Mərkəzində bir çox psixi xidmətlər ilə yanaşı art-terapiya da mövcuddur. Eyni zamanda art-terapiya ilə bağlı müxtəlif elmi tədqiqatlar, kurslar, təlimlər, könüllülər cərəyanı, layihələr reallaşır. Məsələn: "Korporativ Sosial Məsuliyyəti öz fəaliyyətinin ayrılmaz və mühüm hissəsi hesab edən "Azercell Telekom" şirkətinin dəstəyi ilə "Kiçik Ürəklərdə Böyük Xatirələr" adlı sosial layihəyə start verilib.

Layihənin əsas məqsədi İkinci Qarabağ müharibəsində şəhid olan hərbçilərimizin övladları üçün art-terapiya yolu ilə psixoloji təlimlər təşkil etmək, eləcə də, onların qəhrəman ataları haqqında ən gözəl xatirələrindən ibarət kitabı həm rəqəmsal, həm də çap formatda nəşr etməkdir. Layihədə Azercell-in partnyoru "GİD CSR Consulting" şirkətidir. "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsində 5-14 yaş arasında olan 300 uşağın anası ilə birgə iştirak etməsi planlaşdırılır. Təlimlər bir neçə istiqamət üzrə təşkil olunub. "Art-terapiya" (təsviri sənət terapiyası) uşaqların özünü rahat və azad formada ifadə etmələrinə, içində qapalı saxladıqları duyğularını üzə çıxarmalarına şərait yaradacaq. Musiqi, rəsm, hərəkət-rəqs, ədəbiyyat kimi sənət növlərinin köməyilə terapiya alan uşaqlar həm də bu yolla estetik yönlərini ortaya çıxara biləcəklər" [3].

"YAŞAT" Fondu və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə 2021-ci ilin 12 iyul tarixindən avqust ayının sonuna qədər şəhid övladları üçün yay düşərgələri keçiriləcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə, psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar keçirilməsi və yekunda müğənnilərin iştirakı ilə konsert proqramının təşkil olunması nəzərdə tutulub. Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və davamlı olaraq həkim və psixoloqlar tərəfindən müşayiət olunacaqlar. Psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçiriləcək, o cümlədən, baş tutacaq fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və Fond tərəfindən düşərgə sonrasında müalicə prosesinə cəlb olunacaqlar [4].

Bir sözlə, ölkədə art-terapiyanın tədricən nüfuz etməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, sosial işdə art-terapiya fəaliyyətinin uğuru ilk növbədə peşəkar kadrların hazırlanması ilə bağlıdır. Ali məktəblərdə "sosial iş" ixtisasına yiyələnən tələbələrə art- terapiyanın fənn kimi tədrisinə, "sosial işdə art-terapevt" ixtisasının tətbiqinə, sosial işdə art- terapiya haqqında nəzəri və metodoloji bazanın akademik səviyyədə öyrənən tədqiqatlara, bu sahədə milli model yaradılmasına, təsnif edilmiş layihələrin həyata keçirilməsinə, dünya art-terapiya assosiasiyaları ilə əməkdaşlığa, klassik elmi əsərlərin Azərbaycan dilinə tərcüməsinə, bütövlükdə, məsələnin konseptual həllinə ehtiyac var.

**Ədəbiyyat siyahısı:**

1. https://nsportal.ru/detskiy-sad/raznoe/2016/02/10/istoriya-razvitiya-art-terapii
2. A. Hill. Art Versus Illness: A Story of Art Therapy . G. Allen and Unwin, 1948
3. https://www. turan. az/cache/2021/Social/free/news-2021-4-free-Social-az-3489. htm
4. https://asan. gov. az/az/media/press-releases/yasat-duesergesinde-ne-harada-ne-zaman-intellektual-oyunu-teskil-olunub

**Тамилла Хикмет кызы Ахмедова**

## ЭФФЕКТИВНОСТЬ МЕТОДА АРТ ТЕРАПИИ В СОЦИАЛЬНОЙ РАБОТЕ

**Резюме:** Традиция Арт терапии в коррекции интеллектуальных способностей, социального, психического, физического здоровья имеет глубокие корни. Тем не менее становление арт терапии и ее популяризация как самостоятельной формы профилактики и коррекции различного рода отклонений нашло свое выражение в XX веке. В современном мире существует множество форм арт терапии, которые с успехом выполняют задачи повышенной сложности. Рост милитаризации, авторитарности технологий, социальных конфликтов, кризиса экологии ведет к масштабности количества жертв современных разрушительных тенденций.

Поиск эффективности метода арт терапии в социальной работе сегодня означено особой актуальностью.

**Ключевые слова:** арт терапия, социальное, психическое, физическое здоровье, профилактика, социальная работа

**Tamilla Hikmət qizi Ahmadova**

## THE EFFECTIVENESS OF THE ART THERAPY METHOD IN SOCIAL WORK

**Summary:** Art therapy in the correction of intellectual abilities, social, mental, physical health has deep roots. Nevertheless, the formation of art therapy and its popularization as an independent form of prevention and correction of various kinds of deviations found expression in the twentieth century. In the modern world, there are many forms of art therapy that successfully perform tasks of increased complexity. The growth of militarization, the authoritarianism of

technology, social conflicts, and the ecological crisis lead to the scale of the number of victims of modern destructive tendencies.

The search for the effectiveness of the method of art therapy in social work today is marked by particular relevance.

**Key words:** Art therapy, social, mental, physical health, prevention, social work

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**